# Azərbaycan iqlim gündəmində yeni səhifə açır




**Dünyanın ən mötəbər iqlim tədbiri olan COP bəşəriyyətin gələcəyinə dair böyük bir öhdəlikdir. İqlim dəyişmələri kimi qlobal problemin həlli bütün dövlətlərin və beynəlxalq ictimaiyyətin birgə səylərini tələb edir.**

Bu mürəkkəb və məsuliyyətli missiyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bir daha öz liderliyini nümayiş etdirir. Rəsmi Bakı iqlim dəyişmələri ilə mübarizədə "Azərbaycan modelini" təqdim edərək yeni bir səhifə açıb. Məhz bu yolda əmin addımlarla irəliləyən dövlətimizin qlobal problemlərin həllində inklüziv yanaşma ortaya qoyduğunun şahidiyik. Bakının COP29-a ev sahibliyi iqlim məsələlərinin həllinə yeni baxış gətirməklə, həm də müxtəlif maraqlı tərəflər arasında əməkdaşlıq üçün möhkəm körpü yaradır. Bu tədbir ölkəmizi beynəlxalq səhnədə yüksək bir mövqeyə çıxarır, Azərbaycanı qlobal iqlim dialoqunun mərkəzinə çevirir.

**(davamı 10-cu səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

Hər böyük uğurun arxasında düşünülmüş siyasət dayanır. COP29-un Azərbaycanda keçirilməsi də məhz bu məqsədyönlü yanaşmanın növbəti təntənəsidir. Prezident İlham Əliyevin "COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik. Bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq" sözləri bu gün real həyatda öz təsdiqini tapır. Dünya hazırda bu reallıqların canlı şahidinə çevrilib. Hər keçən gün COP29 tariximizə yeni uğur səhifələri əlavə edir. Azərbaycan iqtisadi, siyasi, humanitar və diplomatik mərkəzə çevrildiyini bir daha sübut edir. Liderlərin və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində səslənən fikirlər ölkəmizə və Prezident İlham Əliyevə olan böyük inamı və etimadı əks etdirir. Bu qlobal tədbirə 196 ölkədən 72 mindən çox iştirakçı qatılıb - onların arasında 80 prezident, vitse-prezident və baş nazirlər də var. Dünya bu gün Bakıya toplaşıb. Bu fakt yalnız coğrafi bir həqiqət deyil, həm də Azərbaycanın beynəlxalq arenadakı liderliyinin təzahürüdür. COP29-un uğurları təkcə Azərbaycanın deyil, həm də qlobal iqlim gündəliyinin möhkəmləndirilməsinin bir nümunəsidir. Ölkəmiz bir daha sübut edir ki, qlobal çağırışların cavabında Azərbaycanın rolu əvəzedilməzdir.




Bəşəriyyət üçün iqlim çağırışlarının aktuallığının heç vaxt olmadığı qədər yüksəldiyi bir dövrdə, ölkəmiz bu qlobal problemin həllinə xüsusi həssaslıqla yanaşır. Azərbaycan hər zaman qlobal təhdidlər qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüsləri ilə çıxış edib və bu proseslərdə fəal rolunu inamla göstərir. Tarixdə ilk dəfə olaraq, məhz Bakıda COP29 çərçivəsində bəyan edildi ki, Azərbaycan iqlim çağırışları ilə bağlı müzakirələr üçün beynəlxalq birliyə böyük bir platforma təqdim edir. Bu, həm ölkəmizin qlobal iqlim diplomatiyasındakı liderlik rolunun, həm də məsuliyyətli mövqeyinin parlaq nümunəsidir.

Prezident İlham Əliyev COP-a sədrliyimiz rəsmiləşəndən sonra tədbirin yüksək səviyyədə keçirilməsi üçün inklüziv, ədalətli və tam şəffaf nəticəyönümlü danışıqların vacibliyini vurğulayır. Eyni zamanda COP29-un əsas mövzularından olan iqlim maliyyələşməsi ilə bağlı Azərbaycanın töhfə verəcəyini açıq şəkildə bəyan edir. Cənab Prezident çıxışlarında həm rəsmi Bakının bu prosesdə mövqeyini, həm də iqlim diplomatiyası sahəsində ölkəmizin baxışını qətiyyətlə ifadə edib.

Qeyd edək ki, Azərbaycanın iqlim gündəliyini irəlilətmək üçün göstərdiyi səylər artıq böyük nəticələr verməyə başlayıb. COP29-un ilk günü tarixə mühüm razılaşmalarla yazıldı - sessiyanın gündəliyi uğurla təsdiqləndi və illərdir həllini tapmayan məsələlərdə irəliləyiş, danışıqlar nəticəsində Paris Sazişinin 6.4-cü maddəsi ilə bağlı razılıq əldə olundu. Daha mühümü, çoxtərəfli maliyyə institutlarının iqlim maliyyələşməsi ilə bağlı öhdəlikləri artırılaraq illik məbləğin 75 milyard ABŞ dollarından 170 milyard dollara qaldırılması qərara alındı. On ildən çoxdur ki, bu məsələlər ətrafında uzanan mübahisələrə Bakıda son qoyuldu. COP29-un ilk günündə dünya ölkələri vahid mexanizm ətrafında razılığa gəlməklə, həmrəylik və qətiyyətin gücünü bir daha nümayiş etdirdilər. Bu Azərbaycanın qlobal iqlim səhnəsindəki lider rolunun parlaq sübutudur. Bu tarixi nailiyyət bir daha göstərir ki, əgər səylər birləşdirilərsə, hətta ən çətin və mürəkkəb məqsədlərə də çatmaq mümkündür.



Digər tərəfdən, COP29 iqlim müzakirələrində yeni bir mərhələnin əsasını qoyan tarixi qərarlarla yadda qalır. Konfrans çərçivəsində Tərəflər Paris Sazişinin 6-cı maddəsinin 8-ci paraqrafına uyğun olaraq qeyri-bazar yanaşmalarına dair iş proqramını təsdiqlədilər. Bu yanaşmalar, ölkələrə öz milli iqlim planlarını istər mitiqasiya, istərsə də adaptasiya üzrə tədbirləri həyata keçirmək və davamlı inkişafı təşviq etmək üçün yeni imkanlar təqdim edir. COP29-un Sədrliyi bu sahədə tam funksionallığı təmin etməyi əsas prioritetlərdən biri kimi müəyyən edib. Paris Sazişinin 6-cı maddəsinin tam tətbiqi yalnız iqlim tədbirlərini daha effektiv etmək deyil, həm də ölkələrə xərcləri ildə təxminən 250 milyard ABŞ dolları azaltmaq imkanı verir. Bu qlobal miqyasda həm iqtisadi, həm də ekoloji baxımdan böyük irəliləyiş deməkdir.

Uğurlu diplomatik təşəbbüslər və mədəniyyətlərarası dialoqun inkişafına verdiyimiz töhfələr getdikcə daha da artır. Xatırladaq ki, Qoşulmama Hərəkatına və İslam Əməkdaşlıq Təşkilatına uğurlu sədrlik ölkəmizin dünya siyasətindəki mövqeyini daha da gücləndirib. Azərbaycan BMT-dən sonra dünyada ikinci ən böyük siyasi təsisat olan və 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edərək qurumun beynəlxalq nüfuzunun artmasına əvəzsiz töhfələr verib. Prezident İlham Əliyevin COP29 çərçivəsində keçirilən Liderlər Sammitində dediyi kimi, Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bu missiyanı layiqincə həyata keçirdi. Bu, həm ölkəmizə olan inamın, həm də liderliyimizin qlobal miqyasda etirafının göstəricisidir.

Azərbaycan, həmçinin 60-dan çox dövləti birləşdirən İslam Əməkdaşlıq Təşkilatında fəal iştirak edir və bu qurumun işində mühüm rol oynayır. Eyni zamanda Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq bəyannamələri imzalamaqla, bu qitə ilə əlaqələrimizi yeni səviyyəyə qaldırmışıq. Bu uğurlar yalnız diplomatik sahədə deyil, həm də iqlim dəyişmələri kimi qlobal problemlərin həllində ölkəmizi mühüm körpü rolunda təqdim edir. Azərbaycan çoxtərəfliliyin sadiq tərəfdarı kimi fərqli maraqları və fikirləri bir araya gətirməkdə liderliyini sübut edir. Bununla yanaşı, ölkəmiz mədəniyyətlərarası dialoqun inkişafında və multikultural dəyərlərin təşviqində unikal bir nümunədir. Bakıda hər iki ildən bir BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu artıq beynəlxalq bir brendə çevrilib. Bu forumlar dünya xalqlarını bir araya gətirərək, sülh və həmrəyliyin gücləndirilməsinə xidmət edir. Multikulturalizm Azərbaycanda sadəcə dövlət siyasəti deyil, həm də həyat tərzidir. Ölkəmizdə etnik və dini mənsubiyyətindən asılı olmayaraq hər kəs sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

Bu gün dünya Azərbaycanı təkcə güclü siyasəti ilə deyil, həm də mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun körpüsü kimi tanıyır. Ölkəmiz qlobal əməkdaşlıq ruhunda, daha yaxşı bir gələcək üçün öz töhfəsini verməyə davam edir. Odlar Yurdu həm keçmişin irsinə, həm də gələcəyin çağırışlarına uyğun olaraq liderliyini nümayiş etdirir.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2024.- 20 noyabr (№ 255).- S.1;10.